

# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan



## Türk dünyasının birliyini möhkəmləndirən Lider

**Azərbaycan Prezidenti İlham Əliyev müstəqil xarici siyasət kursunu ölkəmizin və xalqımızın milli maraqlarına uyğun şəkildə həyata keçirir. Dəyişən dünyanın geosiyasi reallıqlarına əsasən təşəbbüskar davranışları ilə ölkəsinə daxili siyasətdə olduğu kimi, diplomatiyada da nailiyyətlər qazandırır. Bu siyasətin başlıca məzmunu Azərbaycanın milli dövlətçilik mənafelərinin qorunması, beynəlxalq aləmdə zəngin potensiala malik ölkə kimi nüfuz qazanmasıdır. Artıq müstəqil xarici siyasət milli ideologiyamızın mühüm prioritetidir və ölkəmiz aparılan islahatlarda bu prioriteti daim nəzərə alır.**

### Yeni reallıqlar dövrü

Dövlət başçısı ötən müddət ərzində qarşıya qoyduğu bütün milli məqsədləri reallaşdırdı. Azərbaycanın ərazilərini düşməndən təmizlədi. 44 günlük Vətən savaşında ordumuzun gücü ilə torpaqlarımızı azad etdi. Zəfərimizi bütün dünyaya qəbul etdirdi. Ən nüfuzlu, ən böyük dövlətləri Azərbaycanın mövqeləri ilə hesablaşmaq, haqq və ədalətin səsini dinləmək məcburiyyətində qoydu. Xalqımızın birliyini, milli vəhdətini, bərabərlik, doğmalıq ruhunu nümayiş etdirdi. Min illər ərzində yaratdığımız şərəfli keçmişdən gələcəyə doğru böyük bir yol başladı.

Türk dövlətləri arasında əməkdaşlığın inkişafı da Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Onları birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər ölkələrimizin qarşılıqlı fəaliyyətinin əsasını təşkil edir. Türk dövlətləri bu gün Azərbaycanın Türkiyə ilə birgə əsasını qoyduğu tarixi reallıqlar işığında bir araya gələrək birgə keçmişin yaratdığı qarşılıqlı inamla, milli-mənəvi dəyərlərin gücü ilə ortaq gələcəyə doğru addımlayırlar. Regionda həyata keçirilən beynəlxalq layihələr ölkələrimiz arasında əməkdaşlığa öz töhfəsini verir. Azərbaycanın tarixi zəfərindən sonra bölgədə yaranmış yeni reallıqlar, Zəngəzur dəhlizinin açılması dövlətlərimiz arasındakı bağlılığı daha da artıracaq. Bu isə əməkdaşlığımıza yeni bir nəfəs qatacaq.

### Gücləndirilən əməkdaşlıqlar

Öz strateji məqsədlərinə doğru əzmlə addımlayan Türk Dövlətləri Təşkilatı artıq qlobal güc mərkəzinə çevrilməkdədir. Təşkilatın İstanbul şəhərində keçirilən VIII Zirvə görüşü türk dünyasının tarixində möhtəşəm bir salnaməyə çevrildi. Tədbirin tarixi əhəmiyyəti təkcə onun türk dünyasının mənəvi mərkəzlərindən sayılan İstanbulda keçirilməsində deyildi. Eyni zamanda ötən bir neçə il ərzində təşkilatın əldə etdiyi parlaq nəticələrin, türk dövlətlərinin birliyi istiqamətində qazanılmış nailiyyətlərin bütün dünyaya təqdimatı baxımından önəmli idi. İstanbul görüşündə qurumun öz strateji məqsədlərinə doğru əzmlə addımladığı aydın şəkildə göründü. Bu nailiyyətlərdə son illər Türk Dövlətləri Təşkilatına rəhbərlik etmiş dövlətimizin və şəxsən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəsna xidmətləri var. Azərbaycan Prezidentinin türk dünyasına ən böyük xidmətlərindən biri isə Vətən müharibəsində qazandığımız Qələbədir. Bununla da bölgədə davamlı sülhə və sabitliyə yol açılmışdır. Uzun illərdən sonra türk dünyasının coğrafi birliyi üçün yeni tarixi reallıqlar yaradılmışdır. Bu tarixi xidmətləri nəzərə alaraq İstanbul Zirvə görüşündə dövlət başçısı İlham Əliyev Türk Dünyasının Ali Ordeninə layiq görüldü.

Ötən il Azərbaycanın rəhbərliyi ilə görülən işlər bu qurumun bir çox məqsədlərinin həyata keçirilməsinə kömək göstərdi. Türkdilli ölkələr arasında əməkdaşlıq əlaqələri daha da genişləndirildi. O cümlədən regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviqi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi istiqamətində addımlar atıldı. Ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılması məqsədilə tədbirlər təşkil olundu. Elm, texnologiya, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi məqsədilə müxtəlif səviyyələrdə layihələr reallaşdırıldı. Azərbaycan 2021-ci ildə də göstərdi ki, türk dövlətləri arasında əməkdaşlığın inkişafı ölkəmizin xarici siyasətinin əsas prioritetlərindəndir. Azərbaycanın sədrliyi dövründə, habelə 2021-ci ildə üzv ölkələr arasında əməkdaşlığın inkişaf etdirilməsi ilə yanaşı, təşkilatın digər mötəbər beynəlxalq təşkilatlarla, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı ilə səmərəli əlaqələri, münasibətləri də davam etdirildi, Ümumdünya Səhiyyə Təşkilatı ilə faydalı əməkdaşlıqlar quruldu. Bu gün Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan Türk Dövlətləri Təşkilatına üzv ölkələrdir. Macarıstan və Türkmənistan isə bu qurumda müşahidəçi statusunda təmsil olunurlar.

Noyabrın 11-də Özbəkistanın Səmərqənd şəhərində Türk Dövlətləri Təşkilatının növbəti IX Zirvə görüşü keçirildi. Mötəbər məclisdə müzakirə olunan məsələlər göstərdi ki, ötən il İstanbulda keçirilmiş VIII Zirvə görüşündən sonra türk dövlətləri arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir. Azərbaycan öz layihələri ilə türk birliyini daha da gücləndirib, əməkdaşlıq imkanlarını genişləndirib. Prezident İlham Əliyev Səmərqənddəki çıxışında türk dünyasının 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə etdiyini və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malik olduğunu xüsusi vurğuladı və bildirdi ki, bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik: "Türk dünyası böyük bir ailədir... Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq".

Prezident İlham Əliyevin toxunduğu ən aktual və ciddi məsələlərdən biri də Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızla bağlı oldu. Dövlətimizin başçısı onların hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəldiyini qeyd etdi.

### Ölkəmiz türk dünyasının birliyi amallarına sadiqdir

Azərbaycan Prezidentinin son bir ildə türk dövlətlərinə rəsmi səfərləri mühüm tarixi əhəmiyyəti ilə yadda qalır. Səfərlər çərçivəsində imzalanmış mühüm sənədlər, qəbul edilən bəyannamələr, təməli qoyulan yeni əməkdaşlıqlar münasibətlərin hərtərəfli inkişafı üçün böyük perspektivlər açır. Azərbaycan xoş niyyətlərini ortaya qoyur, türk dövlətləri arasında münasibətlərin inkişafı üçün bütün faydalı təşəbbüsləri dəstəkləyir, bir çox halda təşəbbüsü üzərinə götürür, qarşılıqlı əməkdaşlıqlara açıq olduğunu nümayiş etdirir. Bu baxımdan ölkəmiz Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistanla sıx əlaqələrə malikdir. Bu həm də xalqlarımızın doğmalığına, ortaq tarixi köklərə söykənir.

Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri zamanı müzakirə olunan mövzuların mahiyyəti, forması, məzmunu, əldə olunan nəticələr və qəbul olunmuş qərarlar iki ölkə arasında münasibətlərin inkişafında yeni bir mərhələnin başlandığını göstərdi.

İmzalanmış Strateji tərəfdaşlığın və qarşılıqlı fəaliyyətin genişləndirilməsi haqqında Bəyannamə də bunun daha bir təsdiqi oldu.

Azərbaycan və Qırğızıstan arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə və Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandum həm ikitərəfli məsələlərin həllinə, həm də regional və beynəlxalq problemlərin daha səmərəli və fəal müzakirələrə geniş imkanlar açdığını göstərdi. Ümumiyyətlə, dövlət səfərləri zamanı bütün ölkələrin rəhbərləri Azərbaycanın etibarlı tərəfdaş olduğunu, bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə maraq göstərdiyini, birgə layihələrin həyata keçirilməsi imkanlarını xüsusi qeyd edirlər.

### Möhkəm təməllər

Son onilliklərdə Azərbaycan və Türkiyə bir millət, iki dövlət olmağın bütün dünya üçün ən parlaq nümunəsini yaratdılar. Ötən il ölkələrimiz arasında imzalanmış tarixi Şuşa Bəyannaməsi ilə Azərbaycan-Türkiyə münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəldi. Bu tarixi sənədi iki qardaş ölkənin liderləri Şuşada imzaladılar. Həmin günün əhəmiyyəti bir də onda idi ki, ilk dəfə Azərbaycan qardaş ölkənin dövlət rəhbərini azad Qarabağda qarşıladı. Yüksək səviyyədə rəsmi qarşılanma mərasimi təşkil olunmuşdu. Şuşa Bəyannaməsinin imzalanması ilə bağlı tədbirin hər anı böyük hadisə idi və rəmzi məna daşıyırdı. O anlarda, demək olar ki, bütün dünyanın nəzərləri Şuşaya yönəlmişdi. "Bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatçısıdır" deyən Azərbaycan Prezidenti İlham Əliyev ölkələrimiz arasındakı münasibətlərin daha geniş strateji səviyyəyə yüksəldiyini, bölgənin parlaq gələcəyinə yol açan əməkdaşlıq olduğunu xüsusi vurğuladı. Hər kəsi həqiqətləri görməyə, Azərbaycan xalqının Zəfərini qəbul etməyə və gələcəyə baxmağa səslədi.

Bu bir tarixi nailiyyət idi! Azərbaycan və Türkiyə liderlərinin ölkəmizin Vətən müharibəsindəki Zəfərindən sonra regionda yaranmış yeni reallığa atdıqları möhtəşəm imzalar idi! Azərbaycan-Türkiyə birliyinin gücü idi!

Müasir dünyamızda bir-birinə bu qədər doğma olan, bütün taleyüklü məsələlərdə birgə hərəkət edən, siyasətə, dövlətlərarası münasibətlərə də səmimilik gətirən iki xalq, iki dövlət təsəvvür etmək mümkün deyil. Onlar yaxşı günlərdə də, çətin günlərdə də həmişə bir-birinin yanındadır. Bu bir gerçəklikdir ki, Türkiyə və Azərbaycan nə qədər bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və rifah o qədər möhkəm olacaq. Bu gerçəyi ölkəmizdə keçirilən "TEKNOFEST-Azərbaycan" festivalındakı çıxışı zamanı dövlət rəhbərimiz bir daha dilə gətirərək 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin tutduğu mövqeyi yada saldı: "Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi Azərbaycana daha bir güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq".

Şuşa Bəyannaməsinə uyğun olaraq, bu gün Azərbaycan və türk diaspor təşkilatları arasında qarşılıqlı əməkdaşlıq, dəstək və həmrəylik fəaliyyətinin gücləndirilməsinə xüsusi önəm verilir. Qloballaşan dünyamızda iki qardaş ölkənin bu sahədə də bir-birinə dəstək olması, ümumi hədəflərə doğru birlikdə irəliləməsi çox mühüm amildir.

Hamıya məlumdur ki, iki qardaş dövlətin birliyi kiminsə marağına toxunan, hansısa ölkələrin imkanlarını məhdudlaşdıran, yaxud milli zəmində ayrı-seçkiliyə yol açan təşəbbüs deyil. Əksinə, burada əsas niyyət bəşəriyyətə xidmətdir. Sülhə, davamlı inkişafa töhfə verməkdir. Hər kəs üçün daha gözəl bir dünyanın qurulmasına çalışmaqdır.

Bu, bəşəriyyətə daha gözəl bir dünya arzulayan liderlərin baxışıdır. Bu reallığın müəllifləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandır. Azərbaycan və Türkiyə münasibətlərinin indiki səviyyəyə yüksəlməsində zəmanəmizin bu iki parlaq liderinin misilsiz xidmətləri var.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*